Homotetiya qanunu

Homotetiya (yunanca Ὁμός — "eyni" və θετος – "yerləşmiş") — oxşar çevrilmənin bir növüdür.
Vikipediya

(Hekayə)

– Nina, sizdə lülə iki əlliyədi?

Qabaqkı masada oturan adamın xırıltılı səsi bayaqdan mənə tanış gəlir. Üzü o yana olduğundan sifəti yaxşı görünmür. Əl telefonunda nömrələri aşağı-yuxarı darayıb inadla nəsə axtarır, kiminsə adının üstündə dayanır, vaxtın gecliyindən, ya nədənsə yığmağa cürət eləmir, çox götür-qoydan sonra nəhayət yığır, çağırsa da götürən olmur, pivə bokalını götürüb hirslə başına çəkir, sonra yenə nəsə axtarır...

– İki əllidi, hə? Gəla bu üşmaatı, piyvənin puluna qatma, bura ayrıca bir şiş lülə gəti. Çörəksiz-zadsız ha, eşissən? Zdaçısını da qoy cibinə.

İki dünya bir ola ilin bu vaxtları pivə yadıma düşməz. Qışın soyuğunda kimdi gəlib buz kimi pivəni qarnına tökən. Amma evdə də otura bilmədim. Yerimə girib yatmağa çalışsam da, gözlərimə yuxu getmədi. Əynimi geyinib təzədən çölə çıxdım, bəlkə bir az fikrim dağıla...

Gün əvvəlindən necə bəd gətirmişdisə!.. Xırda bir şeyin üstündə evdə yenə möhkəm qanqaraçılıq olmuşdu, işdə müdirlə ağızlaşmışdım, – sınamışam, evdə iş düz gətirməyəndə işdə də mütləq bir "çepe" olmalıdı, – qonşuluqda baş verən o dəhşətli hadisə isə!.. Allah heç kimə göstərməsin, yazıqların on səkkiz yaşında ay parçası kimi qızı özünü binadan atıb öldürmüşdü. Özü də evin tək uşağı, deyəsən bəlkə kasıbdılar, nəyəsə ehtiyacları var, yox. Varlı-hallı ailə, atasının böyük tikinti şirkəti, babasının ölkəynən bir vəzifəsi, adı-sanı, qızın özünün o bahalığında maşını...

– Bütün günü ayaq üstəyəm, altı maat pul yığmışam, kül təpəmə. – Şurikin kinosundakı Ninaya oxşayır ofisiant qız. İşin axırı yorğun ayaqlarını güclə sürüyür. Arabir xəlvətə çəkilib günlük "çörəyni" sayır. – Qız uşağıyam e öz dəg

– Aloo. Nağayrırsan? – yenə o xırıltılı tanış səs, deyəsən axır istəyinə çatır. – Səhərdən səni yığıram, deyir, bu nömrə başqa nömrəyə keçirilib. Qız danışır, danışır, axırda görürəm on iki qəpiyim getdi, Allaha and olsun. Naxçıvandasan?.. Naxçıvannan yeddi qəpikdi, hə? Helə… Nə vaxt gəlirsən Bakıya?.. Məzələnmə taag Gə mənim işimi düz-qoş elə da. Doxsan maat verim, o adam gəlsin sənətdərig Məni tutsalar, əlli maatştrafdı eg Deyirəm, hələlik iş tapana kimi bir az taksavatdıxeliyim da, nağayrımg Heş cür alınmır?.. Ay daaag A bir az tez gəl daa, nağayrassan orda?.. İrmidoqquzugejdi dag İrmidoqquzu sən gələnə mən burda hesszadolajam. Məni bilmirsən, məndə pul qalmırg Bu gün var, sabayoxdu, Allaha and olsung Yüz verirəmg Denən yüz verir, on artıxg Sən mənim nömrəmi ver ona, denən, yüz verir, özü gəlsin sənətdərigötüsüng Elə eliyə bilər?.. Doxsana eləməz?.. Ayə, qurbanın qoyun olsun, dəlisən sən? Heşnəg Heşnəg Mən də səni, sən öl, Allaha and olsung Bax da, sən də bir dəfə bir yaralı barmağa...

Milyon səsin içindən tanıyardım o səsi, amma... Onun burda nə işi ola bilərdi. Özü də bu gündə, bu saatda. Eşitdiyimə görə indi o, Moskvada beş kişinin biri olmalıydı. Hər halda, tələbə yoldaşlarımız arasında iş sarıdan ən bəxti gətirənimiz o oldu. İnstitutu bitirən ili, diplomunun "çerneli" hələ qurumamış Mingəçevirdə böyük bir zavodun Baş mühəndisi oldu. Düzdü, sonradan istehsalatda baş verən qəzaya görə – onun günahı üzündən qaldırıcı kran aşıb, altında adam qalmışdı – başı daşdan-daşa dəydi, aylarla məhkəmə qapılarında qaldı, amma sonra yenə, deyirdilər, gedib Moskvada özünə yaxşı biznes qurub, böyük pullar qazanır.

Guya Çindən Rusiyaya ayaqqabı gətizdirirmiş.

Qrupda hamı ona Lenin deyirdi. Həm boydan balacaydı, Lenin kimi, həm də, zalımın balası kəlləydi! İnstitutta fizika-riyaziyyat təmayülündən gəlmişdi deyə, ali riyaziyyatı, tərsimi həndəsəni hamıdan tez götürdü. Tarixə də möhkəm həvəsi vardı, düzdü, – bəlkə də Lenin adı elə ordan qaldı, – amma dəqiq elmlərin atasıydı. Çertyoju gözüyumulu çəkirdi. Təzə bazar tərəfdə birotaq ev kirələmişdi, kimin çertyojluq işi oldu, qaçırdı onun yanına. O da, heç kimə yox demədi...

– Aloo. Mənnənküsmüsən?.. A mən kimə neynəmişəm, mənim telfonumu götürən yoxdug Nətər yanı, bax da telfonag Səhərdən zəng eliyirəm, Allaha and olsun. Gəl qağan saa yaxşıg Özüm ölümg Yeməyə çağırmıramsa kişi döyüləm. Bax bu saat qabağımda lülə, pivə, nə bilim e, nə ürəyin istəsə!.. Oturaq iki qardaşg Gejdi?.. Sabah görüşək!.. Pivəyə da töbələisən?.. Ta bu olmadı kig Sən bilirsən də, sənin xətrinig Noolsung İş yaşda döyül kig Sənin bircə kəlməng Allaha and olsung Prosto sənin oğünkü sözüng Yaxşı, yaxşıg Oldug Noolar, qalsın sorayag Yaxşıg Gejən xeyrə...

Təyinatı alan ili Leninin Mingəçevirdə Baş mühəndis olmağı o vaxt üçün görünməmiş hadisə idi. O vaxt hamı ondan danışırdı: tanıyan da, tanımayan da. Zarafat deyil, iyirmi dörd yaşında "burnufirtıqlı dilğir gədə" istehsalata gəlməyiylə zınlıtı bir zavodun ikinci adamına çevrilmişdi. Direktordan sonra ikinci adam, təsəvvür elə. Belə yerdə deyiblər, qudurasan, qurbağa. Bu işin ən gülməlisi oydu ki, vəzifəyə təyin olunan vaxt Lenin həmin zavodun heç işçisi də deyilmiş. Tamam başqa idarədə – hansısa tikinti trestində adicə mexanik işləyirmiş. Necə oldu birdən-birə, hardan-hara gəldi şəhlıq quşu qondu kişinin başına, bax, əsas danışılan da bu idi. "Belə "tək-pot" yüz ildə bir dəfə udulur", – deyirdilər. – "Bu, bəxti gətirmək deyil, nədisə başqa şeydi!" Zarafat bir yana, gör neçə təsadüf üst-üstə düşməlidi ki, lazımı vaxtda lazımı yerdə olasan, dübarə, sənin lazımlı olduğunu lazımı adamlar görə; zavodda baş vermiş texnogenqəzayla bağlı nazirin özünün şəxsən Mingəçevirə getməsi, şəhərin bütün rəhbər işçilərini, idarə-müəssisələrin əsas aparıcı mütəxəssislərini yığıb müşavirə keçirməsi, – Lenin o "əsas"ların arasına necə düşüb, bu da bir müəmmaydı, – yumruğunu stola vurub, barmaq silkələyib təcili tədbirlər tələb etməsi, partiyadan qovulmaqla, işdən çıxarılmaqla, yoxlamayla, tutquyla hədələməsi vəg araya ağır, dözülməz sükut çökdüyü vaxt Lenin gözünə döndüyümün irəli çıxıb əkəc-əkəc, əl-qol ölçə-ölçə nəsə izah eləməsi!..

– Ürəyim partdıyır e, eşissən?.. Özün bilirsən, mən daşdan pul çıxaran adamam. Əlimnən nə iş desən gəlirg Daş işi, taxta işi, sıvax, svarkag Armaturdan adam yığım ki, dursun qabağında yallı getsin, Allaha and olsung Bildin da, köhnə şirkət pulumuzu kəsdi, vermədig Onnan sonra çıxdım getdim Rusetə, yoxsa mənim orda nə itim azdı ki, oturub-durduğu da qəhbəolajax da, burda nə var!..

O elədisə, bu da elə olacaq, əlbəttə! Deyilənə görə, nazirlə görüşdə də belə "müqaisəli təhlillər" aparıb Lenin; bizim həmişə lağ elədiyimiz, onun isə qaldırıb Nisbilik nəzəriyyəsinə tay tutduğu sevimli Homotetiyasını "xod"a salıb. Fikrini elmi dildə – guya elmi dildə! – elə gözəl ifadə eləyib, əsaslandırıb ki, nazirin xoşuna gəlib. Hamını atıb, onu tutub. Xoşbəxtlikdən kişinin dediyi də düz çıxıb, xırda bir detalın oxşarı ilə əvəzlənməsi sistemdə bütün göstəriciləri normaya salıb. Nazir çağırıb onu yanına, əlini qoyub çiyninə, tərifləyib, hamıya nümunə göstərib, gənc, savadlı kadrların vaxtında irəli çəkilməsininvacibliyindən danışıb və ordaca – bəli, ordaca! – onu zavodun Baş mühəndisi elan edib. Qəza qalıb bir tərəfdə, hamı o təyinatın şokunu yaşayıb.

Halbuki Homotetiyanın texnologiyaya heç bir aidiyyəti yoxdu. Qanunların bəlkə ən avaraqulusu odu. Heç qanun da demək olmaz ona: hər hansı bir formanın müstəvi üzərində, yaxud fəzada oxşar çevrilməsi, bah! Nə böyük iş olub! Di gəl, neynirsən, o avaraqulu dediyin qanun bir göz qırpımında adamın həyatını büsbütün dəyişib! Qaldırıb göyün yeddinci qatına qoyub. Çünki sidq-ürəkdən inanırdı ona. Bəlkə də, əğstəfürillah, Allaha elə inanmırdı, o qanuna inanırdı. Əvvəldən beyninə necə batmışdısa, qəlbinə necə dolmuşdusa, öz doğma balası kimi bilirdi. Elə bilirdi ozü icad eləyib. Hər yerə şamil edirdi, – tarixə, təbiətə, məhəbbətəg Hər yerdə də özünü doğruldurdu...

Amma sonradan, dedilər, elə Homotetiyanın da güdazına getdi Lenin; onun göstərişilə dişli çarxın diametrcə daha kiçiyi ilə əvəzlənməsi qaldırıcı kranın dönmə sürətini artırıb kəlləmayallaq eləmişdi, altında iki nəfər qalıb ölmüşdu...

– Salam, tarixçi qardaş, hər vaxtın xeyirg Bağışda e, sən Allah, gejənin bu vaxtıg Deyirəm, olar da birdən, yatıb eliyərsəng Nəsə yadıma düşdün e, dedim, qoy bir zəng eliyimg Bıy, tanımadın?.. Kül təpəmə, səhərdən nə çənə döyürəm bəg Sibir, Tabolsk, yataxxanadaqaldıx, sonra da ta işimiz alınmadı da, qayıtdıx gəldikg Bizi görəndə hər yer quruyur, düz deyirsəng Amma gündə üş dəfə yeməyimizi verirdilər da, pulsuz-zadsız. Balığına, plovuna kimig Yatpulu da versəydilər yıxılıb martacan qalardığ orda, Allaha and olsung Şaxtası da şaxta döyül e, qurudug Baxırsan, 43 dərəcədi, çölə çıxırsan, belə, narmalnıdıg Əyin-başını bərt gey, qutardı getdi dag Ta Bakınınkı kimi adamı kəsmir e. Düzdü, gejələrmaroz lap çox olur, amma gejəynən bizim nə işimiz, soyunub tursik-mayka girirdik yerimizin içinə daag Arada mən çıxıb gəzirdim e oranag Ay sağ olg A-a-ayy sağ olg Elə mən özüm də bir həfdədi gəlmişəmg Deyirəm, Allah versin yenə buralara, Allaha and olsung Bə nə!.. Bilirsən yenə özününküdü, öz elin-obandı, öz yerindig Amma qırx gün yaxşı istiraat elədik haa orda, Allaha and olsung Sən birəz tez gəldin da, oranın kefini yaxşı görməding Nə qış e, qış gördüük?.. Siqaretdən siqaretə çıxırdıq da çöləg Patent alana kimi yataxxanadaqaldıx, sonra da ta işimiz alınmadı da, qayıtdıx gəldikg Bizi görəndə hər yer quruyur, düz deyirsəng Amma gündə üş dəfə yeməyimizi verirdilər da, pulsuz-zadsız. Balığına, plovuna kimig Yatpulu da versəydilər yıxılıb martacan qalardığ orda, Allaha and olsung Şaxtası da şaxta döyül e, qurudug Baxırsan, 43 dərəcədi, çölə çıxırsan, belə, narmalnıdıg Əyin-başını bərt gey, qutardı getdi dag Ta Bakınınkı kimi adamı kəsmir e. Düzdü, gejələrmaroz lap çox olur, amma gejəynən bizim nə işimiz, soyunub tursik-mayka girirdik yerimizin içinə daag Arada mən çıxıb gəzirdim e oralarıg İrtış çayına gedirdim, orda mavzaley var, köhnə türmə yeri varg Ayy sağ olg Sibirə sürgün olunanların yatdığı yer, sən yaxşı bilirsən e, tarixçisəng Bircə kopəyuşağıyatpulu vermədilər da. O da olsa, yıxılıb qalardı adam. İmisti yeriydi da, ye iç yatg Əvvəllər veriblər e, ayda minə yaxın pul veriblərg O da bizim bəxtimizdəndig Bəgejə yuxuda nə görmüşəm, desəm, gülməkdən qırılarsang Başını ağrıtmıram ki?.. Heləə?.. Ta denən sən də mənim günümdəsən kig Onda qulağ as. Gorürəm yenə Sibirdəyəmg Harasıdı bilmirəm, dəəsən elə Taboldug Məşğulluxidarəsidi, nədi, ordan məni göndəriblər guya harasa işəg Aj toyuq yuxusunda darı görər axıg Ay sağ olg "Lermantov, 19", adres də yadımdadı e, qulağ asg Getmişəm orag Mənnən də başqa nə qədə adam var e, tək döyüləmg Binanı tapa bilmirik. 18 var, 20 var, 19 yoxdu, Allaha and olsun. Hamı qalıb ortalıqda girinc. İki binanın arasında zibil yeşikləridi, yığılmışıq ora. Amma görürəm, hamısının əyin-başı qalındıg Yaxşı isdi paltarları olur axı olarıng Həəg Termosdarı, isdi çaylarıg Tək mən bir nəzik pencəkdə qalmışam qıraxda yetim kimi, əsirəmg Axırda dag nə olajax ta, hesszadg Yuxudan ayıldım dag Gülməli olmadı, hə?.. Bəs sən nağayra bildin?.. Bıy!.. Xəstəxana niyə? Həkimsən sən? Denən tarixçiyəm e mən, mal dili boyda diplomun varg Mən də onu deyirəm daag Əşi nağayrağ eg Bizim iş sunuluyan vaxtımız döyül e tag Harda nə olsa, beş maat, üşmaat, balalarımıza çörəkpulu aparax dag Bənədig Ode, köhnə şirkət pulumuzu kəsdi, vermədi, noolsun? Xeyir tapajaxlar? Ay tapdılar hag Göydən Allah baxır eg A-ayy sağ ol!.. Beş-üç nəfərin dolanmağıynan döyül e, gərək hamıda ola. Sən tarixçi adamsan, belə şeyləri yaxşı bilərsən. Hamıda olmasa, xeyri yoxdug Lenin daşına dirədiyim nə deyirdi?.. Ayy sağ ol!.. A-a-ayy sağ ol!.. Ayrıca götürülmüş bir ölkədəg Bənooldu?.. Niyə qurmadılar o komunizmi?!. Çünkü bilirsən niyə?!..

"Çünki Homotetiya qanunu var..." – mən ürəyimdə dedim və yalnız indi fikir verdim ki, sifariş etdiyi lülənin bircə tikəsini də yeməyib Lenin, hər and içdikcə bir çimdik qoparıb isti batareyanın qırağında xumarlanan pişiyin qabağına atıb.

– Sona, tez yığ məni, konturumg Alog Nağayrırsan? Qaqaşneynir? Yatır?.. Uşaqlarnan danışırsan?.. Həəə?.. Bilməsinlər ha mənim burda olduğumug Qoy hələ sənətdəri düzəldim dag Hə, danışmışam, pulun da vermişəm, narahat olma. Bilirsən niyə zəng elədim saagejənin bu vaxtı?.. Yəni eşidəm, biləm, uşax nədəsə korrux çəkib, çörəyi, suyu, nə bilim, nə, nəg Bax, Allaha and olsun!.. Heləə?.. Heləəə?.. Dədəninkini tez deg Yaxşı, zarafat eliyirəm, konturun gedirg Saba özüm yığajamg Qaqaşdan muğayat ol, di yaxşı...

O zəngdən sonra elə bil rahatlandı, telefonu əlindən yerə qoydu, qollarını gen açıb canı-dildən gəməşdi vəg özündən başqa kafedə kiminsə olacağının sanki birdən fərqinə varıb sərt hərəkətlə başını geri döndərdi. Baxışlarımız toqquşdu, həyatda heç vaxt rastlaşmadığım yad adamın timsah gözləri kimi soyuq, boş, ifadəsiz gözləri bütün vücudumu buza döndərdi, təyintəxminlərimi alt-üst elədi.

Çiynlərimdən ağır yük götürülmüşdü; təsəvvürümdə həmişə gülərüz, güclü, işıqlı qalan yaxın bir adamın sınmış, alınmış halını görmək, ən pisi isə, o halında tanışlıq verib onu utandırmaq əzabından xilas olmuşdum.

Kafedən çıxanda od kimi isti batareyanın qırağında mürgü döyən pişiyə gözüm bir də sataşdı. Burnunun ucuna atılan ət qırıntılarına gözünün ucuyla da baxmamışdı. Gah böyrü üstə, gah arxası üstə uzanıb qarnını, budunu, qoltuğunun arasını yalayırdı.

"Dünyanın kefini bu çəkir e", – ürəyimdə dedim.

Mübariz Örən

Milyon səsin içindən tanıyardım o səsi, amma... Onun burda nə işi ola bilərdi. Özü də bu gündə, bu saatda. Eşitdiyimə görə indi o, Moskvada beş kişinin biri olmalıydı. Hər halda, tələbə yoldaşlarımız arasında iş sarıdan ən bəxti gətirənimiz o oldu. İnstitutu bitirən ili, diplomunun "çerneli" hələ qurumamış Mingəçevirdə böyük bir zavodun Baş mühəndisi oldu. Düzdü, sonradan istehsalatda baş verən qəzaya görə – onun günahı üzündən qaldırıcı kran aşıb, altında adam qalmışdı – başı daşdan-daşa dəydi, aylarla məhkəmə qapılarında qaldı, amma sonra yenə, deyirdilər, gedib Moskvada özünə yaxşı biznes qurub, böyük pullar qazanır

Səhifəni hazırladı: Tural Turan